# Beynəlxalq səyyahlar Qarabağda və Şərqi Zəngəzurda “məzlum” ermənilərin cinayətkar əməllərinin nəticələri ilə tanış olurlar



***Azərbaycan İkinci Qarabağ müharibəsini uğurla başa vurduqdan və tarixi torpaqlarını Ermənistanın işğalından azad etdikdən sonra həmin regionlarda hər şeyin dağıdıldığı, daşından daş üstə qalmadığı məlum oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev azad olunmuş ərazilərə hər səfərində ermənilərin törətdikləri bu vəhşilikləri həm ölkə, həm də beynəlxalq ictimaiyyətin nəzərinə çatdırıb.***



Dövlətimizin başçısı ermənilərin hətta dini abidələri dağıtdıqlarını, məscidlərimizi təhqir etdiklərini, Alban kilsəsini erməniləşdirmək istədiklərini, eyni zamanda, xristian abidəsi olsa da, onu viranəyə çevirdiklərini, burada erməni dilində yazılar yazdıqlarını ifşa edib. Bildirib ki, bu, bizim qədim tarixi abidəmizdir, udi qardaşlarımızın məbədidir: “Bu kilsənin – alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər. Sonra da bəziləri bizə irad tuturlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar... Ermənilərin vəhşiliyini dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsəsini də bu günə qoyublar. Bəlkə burada da heyvan saxlayıblar, burada da dəmir-dümür saxlayıblar, orada o dəmir-dümürlərin bir hissəsi qalıb. Ona görə hər kəs bunu görməlidir, bilməlidir”.

Ərazilərimiz azad olunduqdan sonra Azərbaycan regiona beynəlxalq təşkilatların, siyasətçilərin, jurnalistlərin və s. səfərlərini təşkil edərək onları ermənilərin vandallığı, goreşənliyi ilə əyani şəkildə tanış edib. Bu günlər ölkəmizə gəlmiş dünya səyyahlarının işğaldan azad olunan ərazilərə səfəri davam edir. Səfərin üçüncü günü səyyahlar Şərqi Zəngəzur marşrutu üzrə hərəkət ediblər.

Hazırda dünyanın ən nəhəng 4 səyyah klubundan biri olan ABŞ-ın MTP (Most Travelled People) klubunun təsisçisi Charles Veleyin rəybərliyi ilə 20-dən çox ölkədən 40 nəfərə yaxın səyyah heyətinin səfəri davam edir. Səfər işğaldan azad edilmiş ərazilərin “black tourism” çərçivəsində tanıdılmasına dair müstəsna əhəmiyyət daşıyır. Səyyahlar səfərin marşrutuna uyğun olaraq üçüncü gün Zəngilan və Cəbrayıl rayonlarına səfər ediblər. Onlar həmin rayonlarda işğal zamanı ermənilər tərəfindən törədilən dağıntılarla, viran edilmiş yurd yerləri, ekosid həyata keçirilmiş sahələrlə və azad olunan ərazilərdə tikinti-quruculuq işləri ilə tanış olublar. Səyyahların Ağalı kəndinə və tarixi abidə olan Xudafərin körpüsünə səyahəti də təşkil edilib.

Qeyd edək ki, bundan əvvəl ötən 1 ildə dünyanın biznes və turizm elitasını özündə birləşdirən əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC (Extremal Travellers International Congress), MTP (Most Travelled People), TCC (Travelers' Century Club), Nomadmania klublarının təsisçiləri, prezidentləri və tanınmış üzvləri səviyyəsində qrupların Qarabağ və Şərqi Zəngəzura 3 dəfə səfərləri təşkil olunub. Bu səfərlərə indiyədək ümumilikdə 25-ə yaxın ölkədən 100 nəfərdən çox beynəlxalq səyahətçi qatılıb. Bu, sayca 4-cü analoji səfərdir. Bu dəfə heyətdə daha çox ölkədən nümayəndələr iştirak edir.

İşğaldan azad olunmuş ərazilərdə üç günlük səfərdə olan məşhur səyyahlar Şuşa və Ağdamdan sonra, səfərin ikinci günündə Qarabağ iqtisadi rayonuna daxil olan Füzuli və Xocavənd rayonlarına baş çəkiblər. Onlar Füzuli rayonunda ermənilər tərəfindən törədilmiş dağıntıların şahidi olublar. Füzuli rayonunun Merdinli kəndindəki məscid və məzarlıqdakı dağıntılar barədə səyyahlara məlumat verilib.



Bildirilib ki, düşmən məscid və məzarlıqları dağıdıb, təhqir edib. Bu cür vandalizm aktlarına işğaldan azad olunmuş digər rayon və kəndlərimizdə də rast gəlinir.

Səyyahlar Füzuli şəhərindəki dağıntılara da baxıblar. Məlumat verilib ki, azad olunan digər ərazilərimiz kimi, Füzuli rayonu da kabus şəhərə çevrilib, bura ancaq dağıntılar və minalanmış sahələrdən ibarətdir.

Füzuli Beynəlxalq Hava Limanı ilə tanışlıq zamanı onlara bildirilib ki, qısa müddətdə inşa edilən aeroporta dünyanın digər ölkələrindən də uçuşlar həyata keçirilib. Səyyahlara azad olunan ərazilərdə aparılan tikinti-quruculuq işləri barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, Qarabağın digər rayonlarına və Şərqi Zəngəzura uzanan yollar yenidən qurulur.

Xocavənd rayonuna gələn qonaqlar burada qədim yaşayış məskəni Azıx mağarasında olublar. Onlar mağaranın tarixi və coğrafi mövqeyi barədə ətraflı məlumatlandırılıblar. Bildirilib ki, Azıx mağarası Azərbaycanın cənub-qərbindəki Kiçik Qafqaz dağlarının cənub-şərq yamacında yerləşən, Qarabağın Quruçay dərəsində, Tuğ çökəkliyində, Quruçay çayının sol sahilində yerləşir. Mağarada 600 metrə qədər uzanan 8 dəhliz var. Dəhlizlərin bəzilərinin hündürlüyü 20–25 metrə çatır. Azıx mağarası Daş dövrü insanlarının yaşayış yeri kimi məşhurdur. Mağara 1960-cı ildə Məmmədəli Hüseynovun rəhbərliyi ilə Elmlər Akademiyasının Paleolit arxeoloji ekspedisiyası tərəfindən aşkar olunub. 1968-ci ilin iyununda Məmmədəli Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Azıx düşərgəsinin V təbəqəsinin IV horizontunda apardığı arxeoloji qazıntılar zamanı bir neçə daş məmulatı ilə birlikdə ibtidai insana məxsus çənə aşkar edib. Qonaqlara deyilib ki, Ermənistan işğal dövründə digər tarixi yerlər kimi, Azıx mağarasında da dəyişikliklər etməyə cəhd göstərib.

Daha sonra Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıla gələn səyyahlar burada mina təmizləmə işləri ilə tanış olublar. Onlara məlumat verilib ki, ermənilər bu ərazilərdən müdafiə səddi kimi yararlanıb və əraziyə kütləvi mina basdırıblar. İşğaldan azad edildikdən sonra ərazi ANAMA-nın əməkdaşları tərəfindən minalardan təmizlənir. Qonaqlar ərazidən tapılmış mina və partlamamış silah-sursatların zərərsizləşdirilməsi prosesini də izləyiblər.

Beynəlxalq səyahətçilər Ağdamın Sarıcalı kəndi ərazisində olarkən Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı tərəfindən qonaqlara ermənilərin işğal zamanı törətdikləri vəhşiliklər barədə məlumat verilib. Bildirilib ki, təkcə Sarıcalı kəndi deyil, digər yaşayış məntəqələri də erməni barbarlığına məruz qalıb. Səyahətçilər Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə də məlumatlandırılıblar.

Səfər çərçivəsində Ağdamda Ermənistan tərəfindən dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini, mədəni və tarixi abidələrə, o cümlədən İmarət kompleksinə, Ağdam Cümə məscidinə və yerlə-yeksan edilmiş Şəhidlər xiyabanına baxış keçirilib. Onlara bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən olub. Burada sənaye və kənd təsərrüfatı inkişaf edib. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra şəhərdə və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Qonaqlar Ağdamda həyata keçiriləcək quruculuq işləri barədə də məlumatlandırılıblar.

Səfərdən aldıqları təəssüratları bölüşən səyyahlar gördüklərindən heyrətə gəldiklərini deyiblər. Füzuli şəhərində olmuş beynəlxalq səyahətçilər qrupunun üzvü tailandlı Ponqtarin Tanthasindhu təəssüf hissi ilə bildirib ki, burada hər tərəf dağıntı içərisindədir. Amma sevindirici hal odur ki, Azərbaycan hökuməti bu regionun yenidən dirçəlməsi məqsədilə genişmiqyaslı tikinti-bərpa işləri aparır. O, ümid etdiyini bildirib ki, Azərbaycanın bu gözəl Qarabağ regionuna dünyanın hər bir ölkəsindən daha çox turist səfər edəcək.

“Təəssüflər olsun ki, işğal illəri ərzində ermənilər bu ərazilərdə yalnız dağıntılar törədiblər”, – deyən Ponqtarin Tanthasindhu bildirib ki, ermənilərin basdırdığı minalar səbəbindən turistlərin bu yerlərə sərbəst səfər etmək imkanı yoxdur: “Ümid edirəm ki, bir gün bütün minalar təmizləndikdən sonra insanlar bu ərazilərin gözəlliyinin bir daha şahidi olacaqlar”.

“Bu ərazidə gördüklərim məni heyrətləndirdi. Burada çoxlu dağıntılar törədilib. Amma eyni zamanda, quruculuq işləri də çox fəal gedir. Ərazinin təbiəti və fərqli mədəniyyəti ilə turizm potensialına malik olduğunu da görürəm. Yəqin ki, ilk turistlər bizim kimi səyyahlar olacaqlar”. Bu sözləri isə Ermənistanın işğalından azad edilmiş Ağdam şəhərinə səfər edən beynəlxalq səyahətçilər qrupunun üzvü, bolqarıstanlı Anna Pelova deyib.

O, daha sonra əlavə edib ki, dünya ölkələri Azərbaycan haqqında daha çox məlumat əldə etməlidir: “Fikrimcə, beynəlxalq təşkilatlar ərazilərin minalardan təmizlənməsi məsələsində Azərbaycana dəstək olmalıdır. Bunun üçün də məsələni beynəlxalq ictimaiyyətin diqqətinə mümkün qədər dolğun çatdırmaq lazımdır. Çünki mina təmizlənməsi prosesi uzun və bahalıdır”.

Hazırda səyyahların Şərqi Zəngəzur istiqamətində səfərləri davam edir. Ümid edirik ki, ermənilərin Azərbaycan ərazilərində törətdiyi vəhşilikləri öz gözləri ilə görən bu insanlar vətənlərinə qayıdanda təəssüratlarını doğmaları, əzizləri, yaxınları ilə də bölüşəcəklər. Yüz illər boyu özlərini Qərbə “məzlum” kimi tanıtmağa çalışmış ermənilərin əsl sifəti – canavar xisləti, bax, onda hamıya bəlli olacaq. Azərbaycanın necə bir məkrli liana qarşı mübarizə apardığını, bax, bu cür səfərlər nəticəsində dünya daha yaxşı anlayacaq…

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 11 sentyabr.- S.5.